No: 04 2026
https://doi.org/10.64400/ea26-04-07
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

EKOTERMİNLƏRİN TEMATİK QRUPLARI VƏ ONLARIN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Nurlana ABDULAYEVA
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif:* melisaaliyeva1@gmail.com

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 18.11.2026
Nəşr edilmə tarixi: 30.11.2026

AÇAR SÖZLƏR:
ekologiya, dilçilik, terminlər, ekoterminlər, terminoloji paradiqma

XÜLASƏ
Məqalədə Azərbaycan dilində işlənən ekoloji terminlərin semantik və tematik xüsusiyyətləri araşdırılır. Tədqiqatın əsas məqsədi ekoloji sahəyə aid terminoloji vahidlərin tematik qruplarını müəyyənləşdirmək, onların struktur, semantik və funksional xüsusiyyətlərini üzə çıxarmaqdır. Araşdırmada ekoloji terminlərin ekstralinqvistik parametrlər əsasında qruplaşdırılması əsas götürülür. Nəticədə elmi biliklərin ekoloji sahəsini əhatə edən beş əsas tematik qrup müəyyən edilmişdir: "Ümumi ekologiya", "Geoekologiya", "İnsan ekologiyası", "Sosial ekologiya" və "Tətbiqi ekologiya". Məqalədə bu qruplara daxil olan "populyasiya", "biokütlə", "həyat forması", "eroziya", "yer qabığı", "ekosistem", "ekoloji amillər", "biosfer", "ailənin həyat dövrü", "şəhər ekologiyası" və "əks effekt" kimi terminlərin izahı və mətnlərdə işlənmə xüsusiyyətləri təhlil olunur. Terminlər tərkibinə görə tək-, iki- və üçkomponentli, mənasına görə təkmənalı və çoxmənalı, sabitlik baxımından isə sabit və qeyri-sabit vahidlər kimi səciyyələndirilir. Tədqiqat göstərir ki, ekoloji terminlərin semantik aktuallaşması kommunikativ məqsəd və kontekstdən asılıdır. Ekoloji terminlərin Azərbaycan dilinin peşəkar terminologiyasında fəal işlənməsi ekoloji problemlərin ictimai və elmi əhəmiyyətinin artmasını əks etdirir. Onların qəzet, jurnal və şəbəkə nəşrlərində geniş yayılması ekoloji biliklərin kütləvi kommunikasiya vasitəsilə ötürülməsinə xidmət edir və terminoloji sistemin inkişaf dinamikasını göstərir. Məqalədə həmçinin terminlərin nominativ məna, konnotativ xüsusiyyət və cümlənin semantik həcminə təsiri nəzərdən keçirilir. Bu yanaşma ekoloji terminologiyanın sistemli şəkildə təsnifinə və dil daxilində funksional imkanlarının müəyyənləşdirilməsinə və gələcək tədqiqat istiqamətlərinə şərait yaradır.

GİRİŞ

Ekologiya bir elm kimi canlı orqanizmlərin bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqəsini öyrənir. Müasir dünyada ekoloji problemlər aktuallaşmışdır və bir çox insan dayanıqlı inkişafa, şüurlu istehlaka və təbiətə vurulan ziyanı minimuma endirməyə can atır.

Hazırda dilin leksik tərkibinin zənginləşməsi böyük əksəriyyətdə xüsusi bilik sahələrinin, o cümlədən ekologiya sahəsinin sözlərinin yeni mənalar qazanması (mənimsənilməsi) hesabına baş verir.

Seçilmiş mövzunun aktuallığı bir sıra səbəblərlə şərtlənir: birincisi, Azərbaycan dilinin ekologiya sahəsinə aid leksik tərkibinin genişlənməsi; ikincisi, elektron media mətnlərində ekoloji terminlərin aktiv istifadə olunması; üçüncüsü, dilçi alimlərin bu məsələyə marağının artması ilə. (Соколова, Хлобжева, Гамага, 2022)

MATERİAL VƏ METODLAR

Tədqiqatın əsas metodu terminlərin istifadə sahələrinə görə qruplaşdırılmasını nəzərdə tutan mənaların diferensiasiyası və ümumiləşdirilməsi metodu olmuşdur; tədqiqat zamanı həmçinin komponent, semiotk və semantik təhlil metodları; leksikoqrafik məlumatların təhlili; tədqiq olunan vahidlərin mənalarının mücərrədləşdirilməsi və modelləşdirilməsi metodları, eləcə də koqnitiv və linqvokulturoloji təhlil tətbiq edilmişdir.

Ekologiya termini elektron formalarda təqdim olunan istənilən mətn, audio və videomateriallarda ekologiya sahəsinin əsas terminidir. Ekologiya sözü elmi dövriyyədə müəyyən mənada işlənən təkkomponentli termindir: "bitki və heyvan orqanizmlərinin, onların əmələ gətirdiyi birliklərin bir-biri ilə və ətraf mühitlə əlaqələri haqqında elm" (Соколова, Хлобжева, Гамага,

2022). Bu termin alınma sözdür (yun. oikos — "məskən" ("ev", "vətən"), "mövqe/yerləşmə" + systema — "sistem" ("birlik", "bütöv")), "canlı orqanizmlərin və cansız maddənin maddələr və enerji mübadiləsi ilə bir-biri ilə bağlandığı, sabit bir bütövlük əmələ gətirdiyi" mürəkkəb təbii kompleksi bildirir. (Федорук, 2010)

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Ekologiya bir elm sahəsi kimi canlı varlıqların və ekosistemlərin qarşılıqlı əlaqəsini daha yaxşı anlamağa kömək edən çoxsaylı termin və anlayışları əhatə edir. Aşağıda ekologiyanın əsas terminlərindən bir neçəsi təqdim olunur:

- Ekosistem – canlı orqanizmlərin və onların yaşayış mühitinin bir-biri ilə qarşılıqlı əlaqədə olduğu məcmusudur. Ekosistemdə maddələr və enerji mübadiləsi ilə bağlı proseslər daim baş verir.
- Biomüxtəliflik – Yer kürəsində canlı növlərinin, ekosistemlərin və genetik ehtiyatların müxtəlifliyini ifadə edən termindir. Biomüxtəliflik ekosistemlərin davamlılığını və dəyişikliklərə uyğunlaşma qabiliyyətini təmin edir.
- Ekoloji iz – insan fəaliyyətinin təbiətə təsirini göstərən göstəricidir. O, mövcud istehlak səviyyəsini təmin etmək və yaranan tullantıları utilizasiya etmək üçün tələb olunan təbii ehtiyatların miqdarını ölçür.
- Davamlı inkişaf – ətraf mühitə və gələcək nəsillərə zərər vurmadan cəmiyyətin və iqtisadiyyatın inkişafını nəzərdə tutan konsepsiyadır.

Hazırda ekoloji problemlərin vəziyyəti ekoloqlar, jurnalistlər və siyasətçilər tərəfindən müzakirə olunur. Ekoloji terminlərin təhlili onların ekstralinqvistik parametrlər — ümumi mövzuya əsasında eyni nitq hissəsinə aid sözlərin birliyini təşkil edən tematik qruplarının müəyyən edilməsinə yönəlmişdir. Məsələn, dilin terminoloji paradiqmasında özündə aşağıdakı yarımqrupları ehtiva edən "Ekologiya" tematik meqaqrupu fərqlənir: "Ətraf mühit" ("Flora", "Fauna", "Cansız orqanizmlər" və s.), "Qarşılıqlı münasibətlər" ("İnsan və təbiət", "İnsan və insan", "İnsan, təbiət və cəmiyyət"); məcazi mənalar qrupu (müq. et: "Toksik münasibətlər" = "neqativ həyəcanlar", "neqativ təcrübə" və s.) və s.

Ekoloji terminlər müxtəlif meyarlara görə qruplaşdırılır: Ümumi ekologiya, Geoekologiya, İnsan ekologiyası, Sosial ekologiya, Tətbiqi ekologiya, Bitki ekologiyası, Dəniz ekologiyası, Şəhər ekologiyası, Şəxsiyyət ekologiyası, Sənaye ekologiyası, Əhali ekologiyası, Ailə ekologiyası, Kənd təsərrüfatı ekologiyası, Şirin suların ekologiyası, Tibbi ekologiya, İnsanın bioekologiyası, Etnoekologiya, Kimyəvi ekologiya, Mədəniyyət ekologiyası və s.

I. "Ümumi ekologiya" tematik qrupu hər hansı canlı orqanizmlərin və mühitin, o cümlədən bioloji varlıq kimi insanın qarşılıqlı əlaqələrinin ümumi qanunauyğunluqlarını öyrənir (Третьякова, 2015). Ümumi ekologiya termini digər ekoloji fənlərin nəzəri əsasını təşkil edir və ekoloji elmlər sistemində mərkəzi yer tutur. Ümumi ekologiya sahəsində geniş istifadə olunan məhsuldar terminləri nəzərdən keçirək.

- **Populyasiya** — müəyyən bir ərazidə uzun müddət məskunlaşan, ümumi genofonda malik, sərbəst cütləşmə imkanı olan və bu növün digər populyasiyalarından bu və ya digər dərəcədə təcrid olunmuş "eyni bioloji növə aid fərdlərin məcmusu"dur (Новгородцева, 2015). Qeyd olunan termin təkkomponentlidir (əcnəbi mənşəli sözdür). Məsələn: "*Professorun fikrincə, endemizmin əsas konsentrasiyaları Talış dağları və Naxçıvan Muxtar Respublikası ərazilərində müşahidə olunur. Antropogen təsirlərin, xüsusilə turizm fəaliyyətinin intensivləşməsi, sərhədlərin açıq olması və iqlim dəyişmələrinin təsiri nəticəsində bəzi endemik növlərin populyasiya dinamikasında azalma qeydə alınmaqdadır.*"(https://azertag.az/xeber/professor_bezi_endemik_bitki_novlerinin_populyasiya_dinamikasinda_azalma_qeyde_alinmaqdadir-3929859) Termin təkmanalıdır; nominativ mənanı ifadə edir.
- **Biokütlə** — "maddənin, orqanizmlərin, növün, növlər qrupunun, birliyin və s. quru və ya yaş maddəsinin ümumi kütləsi"dir (Биосфера // Экологическая энциклопедия, 2008); təkkomponentli termindir, strukturuna görə mürəkkəb (mürəkkəb-ixtisar olunmuş) sözdür. Məsələn: *Biokütlə enerji mənbəyidir və sanaye baxımından biokütlə bu bioloji maddələrdən yanacağın alınması və ya digər sənaye məqsədləri üçün istifadə edilməsi ilə əlaqəlidir.*

(https://www.azmiib.az/movzu/Biok%C3%BCtl%C9%99) Termin təkmanalıdır; nominativ mənanı ifadə edir; kontekstin semantik həcminə təsir göstərir.

• **Həyat forması** — həyat tərzinin xarakterik cəhətlərini və növün mühit şəraitinə uyğunlaşmasını əks etdirən morfoloji əlamətlərin məcmusudur. Həyat formaları mühitin indikatorları rolunda çıxış edir, təbii zonaların bitki örtüyünün xarakterini müəyyənləşdirir; ikikomponentli termindir. Məsələn, *Elm laboratoriyasında alimlər yeni bir növ kiçik həyat forması kəşf etdilər və onlara "sinnerg" adını verdilər*. (https://eolymp.com/az/problems/5704) Termin qeyri-sabit, çoxmanalıdır. *Epimorfa, biomorfa, ekomorfa, ekobiomorfa, morfoekoloji tip (forma), morfoadaptasiya tipi* və s. kimi terminlər onun sinonimləri hesab edilə bilər (Федорук, 2010); Mətnlərdə termin nominativ mənanı ifadə edir; bütün cümlənin semantik həcminə təsir göstərir.

II. "Geoekologiya" tematik qrupu (yun. *geo*- "torpaq/yer", *oikos* — "məskən", "ev" və *logos* — "təlim") — ekoloji-coğrafi (geoekoloji) yanaşma əsasında Yer haqqında elmlər (coğrafiya, geologiya, atmosfer fizikası, Yer fizikası, geokimya və s.) və canlı təbiət (biologiya) sahəsində nəzəri və tətbiqi tədqiqatları birləşdirən, təbiət və cəmiyyətin qarşılıqlı əlaqələrinin məkan-zaman qanunauyğunluqlarını öyrənən fənlərarası elmi istiqamətdir (Третьякова, 2015). Bu qrupa mətnlərdə geniş istifadə olunan bir neçə termin daxildir.

• **Eroziya** (lat. *erodo* — "yeyilmə", "dağılma") — torpaqların və süxurların axar sular tərəfindən dağıdılmasıdır, Yer səthinin relyefinin formalaşmasında əsas faktorlardan biridir; təkkomponentli termindir. Məsələn: *Təbiətdə eroziya prosesini törədən səbəblərə görə onları su, külək (deflyasiya), antropogen, irriqasiya və s. eroziyaları adlandırırlar.* (https://www.azmiib.az/movzu/Torpaqlar%C4%B1n-Erroziyas%C4%B1) Termin çoxmənalıdır və yalnız geologiya sahəsində deyil, həm də insan ekologiyasında işlənir (mətnin məzmununa baxın); mənfi məna ifadə edir; cümlənin semantik həcminə təsir göstərir.

• **Yer qabığı** — "litosferin üst hissəsi, xarici bərk təbəqə". Qeyd olunan termin ikikomponentlidir. Məsələn: *Materiklərin və okeanların altında yerləşən Yer qabığı həm quruluşuna, həm də qalınlığına görə fərqlənirlər: Ona görə də materik və okean tipli Yer qabığını fərqləndirmək qəbul olunmuşdur.* (https://www.realwiki.az-az.nina.az/Yer_qab%C4%B1%C4%9F%C4%B1.html) Termin təkmənalıdır; nominativ mənanı ifadə edir; cümlənin semantik həcminə təsir göstərmir.

III. "İnsan ekologiyası" tematik qrupu — ekoloji-sosial-demoqrafik (antropo-ekoloji) proseslərin istiqamətini və nəticələrini, eləcə də onların yaranma səbəblərini müəyyən etmək məqsədilə insan cəmiyyətinin onları əhatə edən və davamlı olaraq mürəkkəbləşən yaşayış mühiti, təbii, sosial, istehsalat, ekoloji amillərlə (mədəniyyət, adət-ənənələr, din daxil olmaqla) qarşılıqlı əlaqələrinin qanunauyğunluqlarını öyrənən elmdir. Bu qrupa daxil olan terminləri nəzərdən keçirək.

• **Ekosistem** (yun. *oikos* — 'məskən', 'yaşayış yeri' və *systema* — 'sistem') — vahid bir bütöv kimi fəaliyyət göstərən, fiziki yaşayış mühiti ilə birlikdə müxtəlif növlərdən olan canlı orqanizmlərin birliyidir (biosenoz). Termin ingilis ekoloqu A.Tensli tərəfindən daxil edilmişdir. Aydındır ki, nə ayrı-ayrı orqanizmi, nə populyasiyanı, nə də ümumilikdə birliyi ətraf mühitdən təcrid olunmuş şəkildə öyrənmək olmaz (Третьякова, 2015). Termin təkkomponentlidir; əcnəbi mənşəli mürəkkəb sözdür. Məsələn: *Ekosistem tədqiqatları ümumiyyətlə canlıları və ya biotik komponentləri cansız və ya abiotik komponentlərlə əlaqələndirən müəyyən proseslərin öyrənilməsini əhatə edir*. (https://www.ekolojik.com.tr/az/sektorel-ipuclari/ekosistem-ne-demek/) *Ekosistem və ya ekoloji sistem – konkret mənada cansız və canlı komponentlərin qarşılıqlı əlaqəsi nəticəsində fəaliyyət göstərən sistemdir. Həmçini ekosistemlər təbii cə antropogen olaraq fərqləndirilir.* (https://kilgara.wordpress.com/wp-content/uploads/2013/03/biosfer.pdf) Termin qeyri-sabitdir, cəmiyyətin inkişafı ilə onun mənası dəyişmişdir; yalnız insan ekologiyası sahəsində deyil, həm də sosial ekologiya sahəsində işlənir; nominativ mənanı ifadə edir; cümlənin semantik həcminə təsir göstərir.

• **Ekoloji amillər (faktorlar)** — orqanizmlərin və ekosistemlərin həyat fəaliyyətinə təsir edən yaşayış mühitinin xüsusiyyətləridir; orqanizmlərin mövcudluq şəraitini müəyyənləşdirir və üç qrupa bölünür: abiotik, biotik və antropogen (Новгородцева, 2015). Qeyd olunan termin ikikomponentlidir. Məsələn:*"Ətraf mühitin ekoloji faktorları orqanizimdə gedən biokimyəvi və fizioloji proseslərə-qidalanma, tənəffüs, fotosintez və s. proseslərə, elə cə də onun yayılmasına,*

inkişafına, məhsuldarlığına, ömrünə, sutkalıq və illik fəaliyyətinə təsir edir." (https://az.wikipedia.org/wiki/Ekoloji_faktorlar). Termin qeyri-sabit, çoxmənalıdır; mənfi məna komponentini ehtiva edir; cümlənin semantik həcminə təsir göstərir.

IV. "Sosial ekologiya" tematik qrupu (cəmiyyət, insan və təbiət) — sosial-ekoloji gərginliyə və münaqişələrə gətirib çıxaran antropogen xarakterli ekoloji amillərin sosial birliklərin, sosial struktur və təsisatların həyat fəaliyyətinə təsiri şəraitində onların inkişafı və fəaliyyət göstərməsi haqqında elmdir; həmçinin bu gərginlik və münaqişələrin azaldılması və ya həlli mexanizmi, ekoloji böhran fonunda sosial-ekoloji gərginlik və ya münaqişə şəraitində sosial fəaliyyətlərin və kütləvi davranışların qanunauyğunluqları haqqında elmdir. Bu tematik qrupa daxil olan və mətnlərdə geniş istifadə olunan bəzi terminlərin mənalarını nəzərdən keçirək.

• **Biosfer** — Yerin canlı orqanizmlərlə məskunlaşmış mürəkkəb xarici təbəqəsidir. Termin təkkomponentlidir, əcnəbi mənşəli mürəkkəb sözdür. Məsələn: *Biosferdə karbon birləşmələrinin oksidləşməsi və reduksiyası reaksiyaları yalnız karbonun deyil, həmçinin oksigenin və bir çox digər elementlərin qlobal yayılmasına və balansına səbəb olur.* (https://kilgara.wordpress.com/wp-content/uploads/2013/03/biosfer.pdf) Termin qeyri-sabit, çoxmənalıdır.

• **Ailənin həyat dövrü** — ailənin yarandığı andan mövcudluğuna xitam verənə qədər sosial və demoqrafik cəhətdən əhəmiyyətli olan vəziyyətlərinin ardıcıllığıdır; üçkomponentli termindir, işlənmə nümunələrinə baxaq: Məsələn:. *Ailə həyatının sosialmədəni şəraitinə diqqətin artırılması inkişafda qüsurlu uşaq böyüdən ailələrin öyrənilməsinə yönəlmiş əsərlər üçün də xarakterikdir.* (Hasilova, 2022) Üçkomponentli termindir; 'ailə üçün əhəmiyyətli olan mərhələlərin (vəziyyətlərin) — sosial və demoqrafik ardıcıllığı' konkret mənasını ifadə edir; müsbət konnotasiyaya malikdir; cümlənin semantik həcminə təsir göstərir; Mətnlərdə bu termin yalnız sosial ekologiya sahəsində deyil, həm də insan ekologiyası sahəsində işlənir.

V. "Tətbiqi ekologiya" tematik qrupu — tədqiqat nəticələri ətraf mühitin mühafizəsinin praktiki problemlərinin həllinə yönəlmiş ekologiya bölməsidir: çirklənmədən mühafizə, ətraf mühitin elmi idarə olunması, təbii ehtiyatlardan səmərəli istifadə, təbiətdə su və hava dövriyyəsi, birliklərin məhsuldarlığı, ekosistemlərin sabitliyi və mümkün yükü və s. "Tətbiqi ekologiya" anlayışı tez-tez təbiətin mühafizəsi termininin sinonimi kimi istifadə olunur. (Третьякова, 2015)

• **Şəhər ekologiyası (şəhərin ekologiyası)** — bilavasitə "insan ekologiyası" anlayışı ilə əlaqəli olan termindir; cəmiyyətin inkişafının ilkin (sosiallaşmadan əvvəlki) səviyyəsini bildirir ki, burada sosial məkanın bölgüsü, məkan uğrunda şəxssiz rəqabət baş verir, bu da iqtisadi fəaliyyətə, siyasi münaqişəyə və daha sonra mənəvi qaydaya keçir. Məhz mənəvi qayda qanunauyğunluq kimi şəhər birliyinin nizamlanmasına — şəhər ekologiyasına tabedir (Биосфера // Экологическая энциклопедия, 2008); *Ekoloji cəhətdən zəngin şəhərcik mühitlərinin yaradılması təkcə planet üçün deyil, insanlar üçün də faydalıdır.* (https://visit.withgoogle.com/intl/az_ALL/stories/urban-ecology/) ikikomponentli termindir, mətnlərdə işlənmə nümunələrinə baxaq:. Termin qeyri-sabitdir, cəmiyyətin inkişafı ilə onun mənası dəyişmişdir; nominativ mənaya malikdir; cümlənin semantik həcminə təsir göstərir; mətnlərdə yalnız tətbiqi ekologiya sahəsində deyil, həm də insan ekologiyası sahəsində işlənir.

• **Əks effekt (tərs effekt)** — nəzərdə tutulanın əksi olan nəticəyə malik plan və ya hərəkəti təsvir edən termindir. Məsələn, ikikomponentli termindir, ingilis dilindən alınmadır; nümunələrə baxaq: *"Əks effekt" tərifi iqlim dəyişikliyi ilə mübarizə tədbirləri görülməzdən əvvəl və ya sonra ortaya çıxan gizli xərcləri nəzərdə tutur* (Биосфера // Экологическая энциклопедия, 2008) Termin çoxmənalıdır; yalnız tətbiqi ekologiya sahəsində deyil, həm də siyasət sferasında işlənir; cümlənin semantik həcminə təsir göstərir; nominativ mənaya malikdir.

NƏTİCƏ

Aparılan araşdırmalar göstərir ki, dil vahidlərinin ekoloji sahədə ifadə etdiyi mənalar əsasında Azərbaycan dilinin peşəkar terminologiyasına daxil olmuş ekoloji terminlərin tematik qrupları müəyyən edilmişdir. Onlar qəzet mətnlərində, jurnallarda, şəbəkə nəşrlərində və s. aktiv şəkildə istifadə olunur və çox vaxt izaha və ya tərcüməyə ehtiyac duymur. Dildə müxtəlif qruplara aid ekoloji

terminlərin işlənməsi olduqca məhsuldardır ki, bu da cəmiyyətin və bütün dünya məkanının həyatında ekoloji problemlərin əhəmiyyətini təsdiqləyir.

Tədqiqat zamanı elmi biliklərin ekoloji sahəsinin məna sahəsini birləşdirən beş tematik qrup müəyyən edilmişdir: "Ümumi ekologiya", "Geoekologiya", "İnsan ekologiyası", "Sosial ekologiya" və "Tətbiqi ekologiya". Bu terminoloji korpusun dominant mənaları — *"təbiət", "elm"* — müxtəlif strukturlu terminləri (tək-, iki- və üçkomponentli) birləşdirir; nüvəətrafı mənalara *"istiqam"* semi ilə reallaşan mənalar daxildir (məsələn: iqtisadi ekologiya, demekologiya və s.); yaxın periferiyaya *"nizamlanma"* (ətraf mühitin mühafizəsi), *"sistem"* (ekosistem, geosistem, ekogeosistem və s.), *"qanunauyğunluq"* (şəhər ekologiyası), *"xassə/xüsusiyyət"* (ekoloji amillər), *"ardıcıllıq"* (ailənin həyat dövrü), *"birlik"* (ekosistem, biosenoz və s.), *"məcmu"* (populyasiya, biogeosenoz və s.), *"Yerin təbəqəsi"* (biosfer) və s. mənalar daxildir; uzaq periferiyaya isə *"varlıq"* (ekoloji niş, flora və s.), *"əlaqə"* və *"mühit indikatoru"* (həyat forması), *"kütlə"* (biokütlə), *"dövriyyə/tsikl"* (ailənin həyat dövrü) və t.s. mənalar aiddir. Onların mənalarının aktuallaşması kommunikativ məqsəddən və kontekstdən asılıdır.

ƏDƏBİYYATLAR

AZƏRTAC. (n.d.). Professor: Bəzi endemik bitki növlərinin populyasiya dinamikasında azalma qeydə alınmaqdadır. https://azertag.az/xeber/professor_bezi_endemik_bitki_novlerinin_populyasiya_dinamikasinda_azalma_qeyde_alinmaqdadir-3929859

Biokütlə. (n.d.). AzMİİB. https://www.azmiib.az/movzu/Biok%C3%BCtl%C9%99

Biosfer [PDF]. (2013). Kilgara. https://kilgara.wordpress.com/wp-content/uploads/2013/03/biosfer.pdf

Ekoloji faktorlar. (n.d.). In Vikipediya. Retrieved October 27, 2026, from https://az.wikipedia.org/wiki/Ekoloji_faktorlar

Ekosistem nə deməkdir? (n.d.). Ekolojik. https://www.ekolojik.com.tr/az/sektorel-ipuclari/ekosistem-ne-demek/

Hasilova, R. V. (2022). Uşağın nitq inkişafına ailənin təsirinin öyrənilməsində nəzəri yanaşmaların təhlili. Qərbi Kaspi Universiteti Elmi Xəbərlər (Humanitar elmlər seriyası), (3). https://journal.wcu.edu.az/uploads/files/2022-3-Humanitar-8Hasilova%20R.pdf

Məsələ № 5704. (n.d.). Eolymp. https://eolymp.com/az/problems/5704

Şəhər ekologiyası. (n.d.). Google. https://visit.withgoogle.com/intl/az_ALL/stories/urban-ecology/

Torpaqların eroziyası. (n.d.). AzMİİB. https://www.azmiib.az/movzu/Torpaqlar%C4%B1n-Erroziyas%C4%B1

Yer qabığı. (n.d.). In RealWiki. Retrieved October 27, 2026, from https://www.realwiki.az-az.nina.az/Yer_qab%C4%B1%C4%9F%C4%B1.html

Биосфера. (2008). In К. С. Лосев (Авт.-сост.), Экологическая энциклопедия: В 6 т. (Т. 1. А–Г). Энциклопедия.

Новгородцева, А. Н. (2015). Социальная экология. Изд-во Уральского университета.

Соколова, Н. А., Хлобжева, И. Н., & Гамага, В. В. (2022). Общая экология: Учебно-методическое пособие. Волжский политехнический институт. http://lib.volpi.ru

Третьякова, Н. А. (2015). Основы общей и прикладной экологии. Изд-во Уральского университета.

Федорук, Т. Н. (2010). Экология. Высшая школа.

ABSTRACT

THEMATIC GROUPS OF ECOLOGICAL TERMS AND THEIR SEMANTIC FEATURES

Nurlana Abdulayeva

Nakhchivan State University, Baku, Azerbaijan

The article examines the semantic and thematic features of ecological terms functioning in the Azerbaijani language. The main aim of the study is to identify the thematic groups of terminological units related to the field of ecology and to reveal their structural, semantic, and functional characteristics. The study is based on the classification of ecological terms according to extralinguistic parameters. As a result, five main thematic groups covering the field of ecological knowledge were identified: “General Ecology”, “Geoecology”, “Human Ecology”, “Social Ecology”, and “Applied Ecology”. The article analyzes the definitions and textual functioning of such terms belonging to these groups as “population”, “biomass”, “life form”, “erosion”, “Earth’s crust”, “ecosystem”, “ecological factors”, “biosphere”, “family life cycle”, “urban ecology”, and “reverse effect”. In terms of structure, the terms are characterized as one-, two-, and three-component units; semantically, they are classified as monosemous and polysemous; and in terms of stability, they are regarded as stable and unstable units. The study demonstrates that the semantic actualization of ecological terms depends on communicative purpose and context. The active use of ecological terms in the professional terminology of the Azerbaijani language reflects the increasing social and scientific significance of environmental problems. Their widespread occurrence in newspapers, journals, and online publications contributes to the dissemination of ecological knowledge through mass communication and demonstrates the dynamics of the development of the terminological system. The article also considers the influence of terms on nominative meaning, connotative features, and the semantic scope of the sentence. This approach contributes to the systematic classification of ecological terminology, the identification of its functional potential within the language, and the determination of prospects for further research.

Keywords: *ecology, linguistics, terms, ecoterms, terminological paradigm*

РЕЗЮМЕ

ТЕМАТИЧЕСКИЕ ГРУППЫ ЭКОЛОГИЧЕСКИХ ТЕРМИНОВ И ИХ СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ

Нурлана Абдулаева

Нахчыванский государственный университет, Баку, Азербайджан

В статье исследуются семантические и тематические особенности экологических терминов, функционирующих в азербайджанском языке. Основная цель исследования заключается в выявлении тематических групп терминологических единиц, относящихся к экологической сфере, а также в раскрытии их структурных, семантических и функциональных особенностей. В основу исследования положена классификация экологических терминов на основе экстралингвистических параметров. В результате были выделены пять основных тематических групп, охватывающих экологическую сферу научных знаний: «Общая экология», «Геоэкология», «Экология человека», «Социальная экология» и «Прикладная экология». В статье анализируются определения и особенности функционирования в текстах таких терминов, входящих в указанные группы, как «популяция», «биомасса», «жизненная форма», «эрозия», «земная кора», «экосистема», «экологические факторы», «биосфера», «жизненный цикл семьи», «городская экология» и «обратный эффект». По структуре термины характеризуются как одно-, двух- и трёхкомпонентные, по значению — как однозначные и многозначные, а с точки зрения устойчивости — как устойчивые и неустойчивые единицы. Исследование показывает, что семантическая актуализация экологических терминов зависит от коммуникативной цели и контекста. Активное функционирование экологических терминов в профессиональной терминологии азербайджанского языка отражает возрастающую общественную и научную значимость экологических проблем. Их широкое распространение

в газетах, журналах и сетевых изданиях способствует передаче экологических знаний посредством средств массовой коммуникации и отражает динамику развития терминологической системы. В статье также рассматривается влияние терминов на их номинативное значение, коннотативные особенности и семантический объём предложения. Такой подход способствует системной классификации экологической терминологии, определению её функциональных возможностей в языке и выявлению перспектив дальнейших исследований.

Ключевые слова: *экология, языкознание, термины, экотермины, терминологическая парадигма*